**Nuriyeva G.N.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.190-199**
**UOT: 343.3**

# Azərbaycan Respublikası qanunvericiliyində ədalət mühakiməsi əleyhinə olan cinayətlərə görə məsuliyyətin tənzimlənməsi

**Xülasə**: Dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası beynəlxalq hüququn tam-hüquqlu subyekti olaraq öz inkişafında demokratik cəmiyyət quruculuğu, sosial yönlü bazar iqtisadiyyatı münasibətləri yolunu tutmuş və müasir dünyanın qabaqcıl ölkələrindən birinə çevrilmişdir. Müstəqilliyin ilk illərində dövlətimizin qarşısında da hüquqi və demokratik ictimai quruluşun bərqərar edilməsi, ədalət mühakiməsinin müasir tələblər səviyyədə təşkili kimi mühüm vəzifələr dayanmışdır. Ölkəmizdə ictimai-siyasi sabitliyin qorunub saxlanması, sosial-iqtisadi münasibətlərin davamlı inkişafı, hüquq qaydalarnın və qanunçuluğun təmin edilməsi, xüsusən, müzəffər Ali Baş Komandan cənab Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın rəşadətli Silahlı Qüvvələri tərəfindən torpaqlarımızın Ermənistanın işğalından azad olunması və ölkəmizin bütün ərazisində dövlət suverenliyinin tam həcmdə bərqərar edilməsi qeyd olunan vəzifələrə yüksək səviyyədə nail olmağa imkan vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinə əsasən, insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə bağlı mübahisələri məhkəmələr həll edir. Demokratik cəmiyyətlərdə məhkəmə hakimiyyəti müstəqil və son dərəcə mühüm təyinata malikdir. Ədalət mühakiməsi dövlət hakimiyyətinin digər budaqları, müəssisə və təşkilatlar, habelə vətəndaşlar arasında yaranan münaqişə və mübahisələri həll edən məxsusi prosessual fəaliyyət sferasıdır. Bu fəaliyyət sferası qanunverici tərəfindən ciddi müəyyən edilmiş prosessual formalarda həyata keçirilir. Ədalət mühakiməsi mülkiyyətin, ictimai qaydanın, ictimai təhlükəsizliyin, eləcə də dövlət hakimiyyətinin təhlükəsizliyinin təmin olunması məqsədlərinə xidmət edir. Bu fəaliyyət qanun tərəfindən ciddi müəyyən edilmiş üsul və vasitələrlə həyata keçirilir.

Məqalədə ədalət mühakiməsinin anlayışı, mahiyyəti, məzmunu, bu münasibətlər sisteminə qəsd edən ictimai təhlükəli əməllərin əhatə dairəsi araşdırılır, bu femomenin cəmiyyət həyatında oynadığı rol ilə bağlı vahid, ümumqəbulolunmuş rəyin olmadığı müəyyən edilir. Ədalət mühakiməsi üzrə bu və digər məsələlər öz optimal həllini yalnız o zaman tapa bilər ki, bu fenomenin mövcud xassələrindən hansı birinin universal, hansı birinin isə bilavasitə şəraitdən asılı olduğu və ya şəraitə uyğunlaşdırıldığı barədə aydın təsəvvür olmuş olsun.

**Açar sözlər**: ədalət; ədalət mühakiməsi; məhkəmə; prokuror; ibtidai araşdırma; cinayət tərkibi; cinayətin obyekti; cinayətlərin təsnifatı.

♦ **Nuriyeva Günəş Nizami qızı** - Azərbaycan Texniki Universitetinin İqtisadiyyat və İdarəetmə Fakültəsi Humanitar elmlər kafedrasının baş müəllimi, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin dissertantı. (Azərbaycan). E-mail: aliyev-1973@list.ru

Məhkəmə hakimiyyətinin anlayışına, onun həyata keçirilməsinin funksiyalarına və formalarına, ədalət mühakiməsinin həyata keçirilməsi metodu kimi cinayət prosesinin xüsusiyyətlərinə, fərdi hüquqların müdafiəsində onun roluna istinad etmədən məhkəmə hakimiyyəti tərəfindən həyata keçirilən məhkəmə müdafiəsini düzgün başa düşmək olmaz. Bu baxımdan milli hüquq ədəbiyyatında ədalət mühakiməsinə bir sıra müəlliflərin verdiyi anlayışları diqqətə çatdıraq. A.Quliyevin fikrincə, ədalət mühakiməsi qanunla müəyyən edilmiş, ciddi prosessual qaydada həyata keçirilən, mövcud sosial qayda-qanunların mühafizəsinə və möhkəmləndirilməsinə xidmət edən, məqsədi bütün idarə, müəssisə və təşkilatlar, vəzifəli şəxslər və vətəndaşlar tərəfindən qanunun tələblərinə ciddi əməl olunmasını təmin edən dövlət fəaliyyətidir [2]. N.Tağıyeva hesab etmişdir ki, ədalət mühakiməsi məhkəmənin konstitusiya, mülki, inzibati-iqtisadi və cinayət işlərinə qanunvericiliklə müəyyən edilmiş qaydaya və şərtlərə uyğun olaraq baxılmasına və qanuni qərarların qəbul edilməsinə yönəlmiş dövlət fəaliyyəti olmaqla yanaşı, həm də məhkəmələrin xüsusi fəaliyyəti olan mühakimə yolu ilə, çəkişmə üsulu ilə ədalətin üzə çıxarılmasına, ortaya qoyulmasına xidmət edən dövlətin xüsusi fəaliyyətidir [3].

M.Cəfərquliyev göstərmişdir ki, ədalət mühakiməsi məhkəmənin konstitusiya, mülki, inzibati və cinayət işlərinə qanunvericiliklə müəyyən edilmiş qaydaya və şərtlərə uyğun olaraq baxılması və qanuni qərarların qəbul edilməsinə yönəlmiş dövlət fəaliyyətidir. Bu işlərə xüsusi orqanlar – məhkəmələr tərəfindən baxılır. Çünki ədalət mühakiməsi məhkəmə hakimiyyətinin həyata keçirilməsinin üsulu və vasitəsi olmaqla, bu yalnız məhkəmələrə xas olan fəaliyyətdir. Başqa heç bir orqan məhkəmənin funksiyası olan ədalət mühakiməsini həyata keçirə bilməz. Bundan fərqli olaraq məhkəmə prosesi yalnız məhkəmənin deyil, həm də təhqiqat, istintaq və prokurorluq orqanlarının fəaliyyətini əhatə edir [3].

Ədəbiyyatda qeyd olunmuş aşağıdakı mövqe ilə razılaşırıq ki, məhkəmənin cinayət işinə baxmasından əvvəl gələn, təhqiqat və ya istintaq formasında həyata keçirilən cinayətin ibtidai araşdırması ədalət mühakiməsi hesab oluna bilməz. Bu yalnız ədalət mühakiməsini həyata keçirmək üçün baza – şərait yaradır. Ona görə də təhqiqatçını, müstəntiqi və onların fəaliyyətinə nəzarət edən prokuroru ədalət mühakiməsini həyata keçirən şəxslər qrupuna aid etmək olmaz [4].

Ədalət mühakiməsi sferası vəzifəli şəxslərinin fəaliyyəti qanuni, əsaslandırılmış və ədalətli məhkəmə qərarlarının çıxarılmasına yönəldilmişdir. Ona görə də prosessual fəaliyyət sahəsi subyektlərinin hüquq və qanuni mənafelərinə qarşı yönələn qəsdlər dövlət hakimiyyəti mənafeyinə qarşı istiqamətləndirilən hüquqazidd fəaliyyət kimi qiymətləndirilməlidir. Qanunvericilik hakimin, prokurorun, müstəntiqin, təhqiqatçının, müdafiəçinin, ekspertin, icra məmurunun yerinə yetirdiyi işi özünün spesifikliyi ilə seçilən xüsusi fəaliyyət kimi qiymətləndirir. Adları çəkilən şəxslər ədalət mühakiməsini və ya ibtidai araşdırmanı həyata keçirərkən dövlətin adından mühüm funksiya və vəzifələr həyata keçirirlər. Bu fəaliyyət nəticəsində ayrı-ayrı şəxslərin kriminal əməlləri ifşa olunur və məhkum edilirlər. Bütün bunlar kifayət qədər mürəkkəb və məsuliyyətli dövlət vəzifələrinin həyata keçirilməsində özünü göstərir.

Hüquqi dövlətin qurulduğu, insan hüquq və azadlıqlarının mühafizəsinin önə çəkildiyi, hakimiyyət bölgüsünün həyata keçirildiyi, məhkəmə-hüquq islahatlarının uğurla aparıldığı şəraitdə ədalət mühakiməsi əleyhinə olan əməllər ilə mübarizənin cinayət-hüquqi problemlərinin kompleks elmi-nəzəri tədqiqi olduqca əhəmiyyətlidir. Belə əməllər yüksək ictimai təhlükəliliyi və nəticələrinin xüsusilə ağır olması ilə fərqlənir. Ölkəmizdə aparılan məhkəmə hüquq islahatları məhkəmə hakimiyyətinin ardıcıl və sistemli həyata keçirilməsi istiqamətində görülən gərgin və səmərəli tədbirlər respublikamızda ədalət mühakiməsinin reallığını təmin etmişdir. Ədalət mühakiməsinin

hüquqi dövlət prinsiplərinə və demokratik əsaslara müvafiq həyata keçirilməsinin cinayət hüquqi vasitələrlə təmin edilməsi üçün cinayət qanunvericiliyinə mühüm dəyişikliklər edilmişdir. Ölkədə dövlət hakimiyyətinin həyata keçirilməsi, insan hüquq və azadlıqlarının mühafizəsi və cəmiyyətdə ədalətin qorunub saxlanması üçün müstəqil məhkəmə hakimiyyətinin rolu şübhəsizdir. Bəşəriyyət tarixində insanların ən böyük və ideal arzusunun ədalətli cəmiyyətin qurulması olduğunu nəzərə alsaq, cəmiyyətdə ədalətin qorunmasının nə dərəcədə vacib olduğunu təsəvvür etmək mümkün olar. Müstəqil məhkəmə hakimiyyəti olmadan hüquqi dövlətin bərqərar olunmasından danışmaq qeyri-mümkündür [3].

Hakimiyyət bölgüsünün mühüm bir qolu olan məhkəmə hakimiyyəti ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr tərəfindən həyata keçirilir. Ona görə də ədalət mühakiməsinin normal həyata keçirilməsi üçün məhkəmə fəaliyyətinin müstəqilliyinin və ədalət mühakiməsinin həyata keçməsinin əsas prinsiplərinin və şərtlərinin qorunması mühüm əhəmiyyətə malikdir. Azərbaycan Respublikasında hakimlərin müstəqilliyinin təmin edilməsi və ədalət mühakiməsi fəaliyyətinin normal həyata keçirilməsi aparılan məhkəmə-hüquq islahatları ilə əlaqədar görülən əsaslı tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi yolu ilə təmin edilmişdir. Ölkəmizdə ədalət mühakiməsinin reallığının təmin edilməsi üçün hakimlərə geniş hüquq və səlahiyyətlər verilmişdir. Hakimlər müstəqillik, dəyişməzlik, toxunulmazlıq, öz mənafelərini təmsil edən qurumlarda birləşmək, eləcə də dövlət tərəfindən təhlükəsizliklərinin, mülkiyyətlərinin qorunması və sosial müdafiə hüquqlarına malikdirlər. Hakimlərin müstəqilliyinə onların səlahiyyət dövründə dəyişməzliyi, toxunulmazlığı, vəzifəyə təyin olunmasının, məsuliyyətə cəlb edilməsinin, vəzifədən kənarlaşdırılmasının və səlahiyyətlərinə xitam verilməsinin məhdudlaşdırılması və s. imkanlar ilə təminat verilir. Məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsi və ədalət mühakiməsinin qanunda nəzərdə tutulmuş qaydada qanuni və ədalətli həyata keçirilməsi, məhkəmə icraatına və məhkəmə fəaliyyətinə hər hansı şəxs tərəfindən məhdudiyyətlərin qoyulması və müdaxilələrin edilməsi yolverilməz hesab edilir, hakimlərin təhlükəsizliyinin qorunması dövlət tərəfindən təmin edilir. Azərbaycan dövlətinin başçısı - Prezident məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısı sayılır. Respublikamızda «Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında» və «Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» 11 dekabr 1998-ci il tarixli qanunlar qəbul edilmişdir.

Azərbaycan Respublikasında ədalət mühakiməsi məhkəmə hakimiyyətinin tərkibinə daxil olan Konstitusiya məhkəməsi, Ali məhkəmə, Apellyasiya məhkəmələri, ümumi və ixtisaslaşdırılmış məhkəmələr tərəfindən konstitusiya nəzarəti, mülki, iqtisadi, inzibati və cinayət mühakimə icraatı vasitəsilə və qanunda nəzərdə tutulmuş digər vasitələrlə həyata keçirilir. Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir. Azərbaycan Respublikası adından qərar çıxaran, çəkişmə prinsipi əsasında fəaliyyət göstərən məhkəmələrin fəaliyyətinə hər hansı bir şəxs tərəfindən və ya hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhdudiyyətlər qoyulmasına, qanunazidd təsir, hədə-qorxu gəlmək və onun fəaliyyətinə müdaxilə edilməsi, məhkəmə icraatının qanun əsasında başa çatdırılmasına və ədalətli qərar qəbul edilməsinə mane olduğuna görə hər hansı bir müdaxilə yolverilməz hesab edilir.

Azərbaycan Respublikasının adından çıxarılan və qanuni qüvvəyə minmiş məhkəmə qərarları bütün ölkə ərazisində məcburi qüvvəyə malikdir və onun icrası mübahisə edilmədən həyata keçirilməlidir. Bununla belə, məhkəmə qərarı yalnız və yalnız qanunlara və sübutlara əsaslanaraq çıxarılmalıdır. BMT Baş Məclisinin «Məhkəmə orqanlarının müstəqilliyinin əsas prinsiplərinə dair» 29 noyabr 1985-ci il tarixli 40/146 saylı Qətnaməsinə görə, məhkəmə orqanlarının müstəqilliyi dövlət

tərəfindən təmin edilir. Üzv dövlətlərin hər biri məhkəmə orqanlarının öz funksiyalarını lazımi şəkildə həyata keçirmələri üçün onları müvafiq vasitələrlə təmin etməyə borcludurlar.

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinə görə, prokurorluq orqanları məhkəmə hakimiyyətinin tərkibinə daxildir. Ölkəmizdə istintaq və təhqiqat fəaliyyəti Azərbaycan Respublikasının Prokurorluğu, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Ədliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti, Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Müdafiə Nazirliyi tərəfindən həyata keçirilir. Bu orqanlardan yalnız prokurorluq məhkəmə hakimiyyətinin tərkibinə daxil edilsə də, digər qurumlar ölkə prezidentinin rəhbərliyi altında fəaliyyət göstərən icra hakimiyyəti orqanlarının rəhbərliyi altında fəaliyyət göstərir və hakimiyyət bölgüsü sistemində icra hakimiyyəti orqanlarına aiddir. Beləliklə, təhqiqat və ibtidai istintaq fəaliyyətini özündə birləşdirən ibtidai araşdırma orqanları prosessual fəaliyyətə rəhbərliyi həyata keçirən prokurorluğun və məhkəmə nəzarətinin nəzarəti altında fəaliyyət göstərir.

Cinayət prosesinin iştirakçılarının hüquqlarının təmin edilməsi problemi həmişə aktualdır, nə qədər ki, bu fəaliyyət sferası əleyhinə cinayətlər törədilir, cinayət prosesində iştirak edən şəxslərin hüquqları pozulur, bir o qədər də həmin şəxslərin hüquqlarının səmərəli müdafiəsi mövzusu özünün aktuallığını qoruyub saxlayacaqdır. Bu gün cinayət prosesində insan hüquqlarının pozulmasının kütləvi miqyasını qeyd etmək, fərdi prosedurların təkmilləşdirilməsini və əsassız hüquqi məhdudiyyətlərə qarşı təminatların gücləndirilməsini təklif etmək yetərli görünmür. Bu gün sual fərqlidir və bir insanın cəmiyyətdəki mövqeyini, dövlətlə münasibətini kökündən yenidən nəzərdən keçirməklə əlaqələndirilir. İnsan şəxsiyyətinin prioritetinin yalnız aydın dərk edilməsi və cəmiyyət tərəfindən real tanınması cinayət-prosessual qanunvericiliyində hər kəsin hüquq və azadlıqlarının təmin edilməsi üzrə müstəntiqin, prokurorun və məhkəmənin vəzifələri ilə bağlı qaydaları düzgün qiymətləndirməyə imkan verir. Bu vəzifəli şəxslərin vəzifələrinin dövlətin şəxs qarşısındakı borcunun tərkib hissəsi kimi nəzərə alınması bütün cinayət ədliyyə sistemini fərqli qiymətləndirməyə və onun inkişaf perspektivlərini müəyyən etməyə imkan verir [7].

Azərbaycan Respublikasının 30 dekabr 1999-cu ildə qəbul edilən və 1 sentyabr 2000-ci ildən qüvvəyə minən Cinayət Məcəlləsinin «Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər» bölməsinin «Ədalət mühakiməsi əleyhinə olan cinayətlər» adlı müstəqil fəslin (32-ci fəsil) yaradılması bu sahədə ictimai münasibətlərin daha etibarlı mühafizəsinə və qorunmasına istiqamətlənmişdir. Göstərilən kateqoriyadan olan cinayət tərkiblərinin quruluş cəhətdən müstəqil verilməsi cinayət məsuliyyəti əsaslarının və hədlərinin diferensiasiyasının səmərəli vasitələrinin axtarılması və təhlil edilən cinayətkar qəsdlərin mühüm əlamətlərinin spesifik xüsusiyyətlərinin daha ətraflı nəzərdən keçirilməsi zərurətindən doğmuşdur.

Ədalət mühakiməsi əleyhinə olan cinayətlərin bir çox aktual problemlərinin həlli üçün həmin əməllərin qəsd obyektinin düzgün müəyyən edilməsinin mühüm əhəmiyyəti vardır. Ədəbiyyatda düzgün olaraq göstərilmişdir ki, cinayətin obyektini müəyyən etmədən ictimai təhlükəli əməlin həqiqi mahiyyətini dərk etmək, ictimai təhlükəli əməllər sistemində onun yerini müəyyən etmək və ədalətli cəza tətbiq etmək mümkün deyildir. İnqilabdan əvvəlki dövrün məşhur rus hüquqşünası N.S.Taqantsev hesab edirdi ki, cinayətin obyekti özünün real mövcudluğunda həmişə hüquqi normadır. Beləliklə, o, A.Feyerbaxın etdiyi kimi, cinayətin obyektinin subyektiv hüququn obyekti kimi tanınmasına etiraz edirdi. Müəllifin fikrincə, real hüquq sahibinə zərər vurmaq cinayətin mahiyyəti deyil, yalnız bir vasitədir. Bu, cinayət hüququnda ikinci dərəcəli rol oynayır, çünki cinayətin mahiyyəti dövlətin hüquq qaydasının toxunulmazlığına dair tələblərini pozmaq üçün bu şəkildə ifadə edilmiş iradənin müəyyən edilməsidir və buna görə də qanunun keşiyində duran dövlət

cinayətdən həmişə əziyyət çəkir. Digər inqilabaqədərki alim A.D.Marqolin yazırdı ki, cinayət mahiyyətcə fərdlərin, vətəndaşların, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə qəsddir [5].

Cinayət əməlləri, ilk növbədə, zərər vurduqları ictimai münasibətlərin əhəmiyyəti və dəyərinə görə bir-birindən fərqlənirlər. Buna görə də ədalət mühakiməsi əleyhinə olan cinayətlərin bir fəsil çərçivəsində birləşdirilməsi başlıca olaraq bu cinayətkar qəsdlərlə pozulan ictimai münasibətlərin spesifik xüsusiyyətlərinin və keyfiyyət göstəricilərinin nəzərə alınması reallığından irəli gəlir. Ədalət mühakiməsini və bu fəaliyyətə yardım edən orqanları yalnız dövlət aparatının bir həlqəsi kimi və dövlətin idarəetmə sahəsi qismində deyil, müstəsna dərəcədə əhəmiyyəti olan vəzifələri yerinə yetirən mexanizm kimi təsəvvür etmək zəruridir. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 9-cu maddəsinə uyğun olaraq cinayət mühakimə icraatının təyinatı insan və vətəndaş hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılması hallarından mühafizəni etibarlı təmin etməkdən ibarətdir. Əlbəttə, insan hüquq və azadlıqlarının dövlət müdafiəsinin digər, məhkəmədən kənar da realizəsinin olduğunu da nəzərdən qaçırmaq olmaz. Bununla yanaşı, hüquq ədəbiyyatında düzgün olaraq göstərilir ki, dövlət hakimiyyətinin digər orqanlarından, o cümlədən, hüquq-mühafizə orqanlarından fərqli olaraq məhkəmənin başlıca vəzifəsi insan hüquq və azadlıqlarının müdafiəsi sayılır [7].

Dövlət hakimiyyətinin qanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölünməsi, məhkəmə hakimiyyətinin müstəqilliyinin və muxtariyyətinin gücləndirilməsi istiqamətində elan edilmiş və ardıcıl olaraq davam etdirilən kurs məhkəməni hüquq-mühafizə sisteminin həlqələrindən birindən fərdi hüquqların müdafiəsinin mərkəzi və ən səmərəli mexanizminə çevirir. Məhkəmə sisteminin əsas məqsədi vətəndaşlara onların qanuni hüquq və mənafelərinin həyata keçirilməsində köməklik göstərməkdir. İnsan hüquq və azadlıqlarının məhkəmə yolu ilə müdafiəsi digər mexanizmlərdən bir sıra mübahisəsiz üstünüklərə malikdir. Bu baxımdan insan hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin şəxslərin qeyri-məhdud dairəsinə şamil edilməsi, məhkəmə müdafiəsinin hər bir fərdə məxsus olan hüquq və azadlıqlara istisnasız olaraq aid edilməsi, öz normativ təsbitini tapan və qanuna zidd olmayan, eləcə də hər hansı normativ-hüquqi aktda nəzərdə tutulmayan hüquq və azadlıqların da məhkəmə müdafiəsinin predmeti olmasının mümkünlüyü, istənilən dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, siyasi partiyalar, ictimai birliklər, habelə istənilən səviyyədən olan vəzifəli şəxslər tərəfindən məhkəmənin müdafiəsi altında olan insan hüquq və azadlıqlarının pozulmasının və məhdudlaşdırılmasının istisnalığı, insan hüquq və azadlıqlarını bilavasitə məhkəmə müdafiəsinin özü ilə əlaqədar olan hissədə, lakin heç bir şəraitdə və halda məhdudlaşdırıla bilməyən hüquqlara aid olması kimi keyfiyyətlər məhkəmə hakimiyyətini səciyyələndirən əsas xüsusiyyətlər hesab olunurlar [3].

Ədalət mühakiməsinin həyata keçirilməsinə dair müddəaların pozulması qanunda nəzərdə tutulmuş hüquqi nəticələrə səbəb olur. Ədalət mühakiməsinin həyata keçirilməsinə dair müddəaların pozulmasına görə qanunda nəzərdə tutulmuş ən ciddi tədbir cinayət məsuliyyəti hesab olunur. Məhkəmənin fəaliyyəti öz istiqamətinə görə mühafizəedici, idrak və hüquqtətbiqetmə, həyata keçirmə metoduna görə isə prosessual forma axımına malik olan fəaliyyət növü hesab olunmalıdır. Fikrimizcə, ədalət mühakiməsinin təbiətinin spesifik cəhətləri onu cinayət-hüquqi mühafizənin müstəqil obyekti qismində fərqləndirməyə imkan yaradır. Belə fərqləndirmə kompleks normaların yaradılmasını zəruri edir. Bu normaların əsas təyinatı ədalət mühakiməsini mühafizəedici, idrak, hüquqtətbiqetmə fəaliyyəti kimi müdafiə etməkdən, eləcə də onu forma olmaq etibarilə prosessual məcəllələrin vahid struktur elementi çərçivəsində müvafiq göstərişlər və qadağanlarla əlaqələndirilməsindən ibarətdir.

Belə bir rolu başlıca olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin «Ədalət mühakiməsi əleyhinə olan cinayətlər» adlı 32-ci fəslinə daxil olan cinayət tərkibləri yerinə yetirir.

Ədalət mühakiməsi əleyhinə törədilən hər cür cinayətkar qəsdlər dövlət fəaliyyətinin mühüm sahələrindən birinin normal fəaliyyətini pozduğuna görə, belə sosial təhlükəli əməllər həmişə yüksək ictimai təhlükəlilik dərəcəsinə malik olmaları ilə xarakterizə olunurlar. Belə əməllərin qəsd etdiyi dəyərlərin dövlət hakimiyyətində xüsusi yeri olan məhkəmə hakimiyyətinin normal fəaliyyətini, habelə bu fəaliyyəti həyata keçirən şəxslərin həyatını qoruyan ictimai münasibətlərə qəsd etməklə ciddi nəticələr doğurur. Lakin ədalət mühakiməsinin həyata keçirilməsi əleyhinə olan cinayətlərin Cinayət Məcəlləsinin 32-ci fəslində nəzərdə tutulan obyektləri tam əhatə etməsi barədə qəti fikir söyləmək düzgün olmazdı. Ədalət mühakiməsinin mənafeləri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 32-ci fəslinə daxil edilmiş əməllərin növ obyekti kimi çıxış edir. Qanunverici ədalət mühakiməsi anlayışı ilə həmin fəsildə təkcə məhkəmə orqanlarını deyil, həm də təhqiqat, ibtidai istintaq, əməliyyat-axtarış fəaliyyəti və prokurorluq kimi digər orqanların da fəaliyyətini əhatə etmişdir.

Cinayət Məcəlləsinin bu fəslinə daxil edilmiş tərkiblərin cinayət hüquqi təhlili göstərir ki, burada əksiuni tapan cinayətkar qəsdlər kifayət qədər ümumi, oxşar cəhətlərə malikdir. Kriminal əməllərin təsnifatı məsələsi müvafiq sistemin daxili elementlərinin əhəmiyyətli keyfiyyət göstəricilərinin müəyyən edilməsi məqsədlərinə xidmət edir. O.E.Leyst yazırdı ki, təsnifat dedikdə, sistemin bölmələrinin mühüm olan keyfiyyətlərinin aşkar olunması üsulu başa düşülməlidir. Bu zaman bölmənin elementlərindən hər birinin digər əlamətləri, başqa sözlə, onlardan törəyən əlamətlərindən asılıdır [8].

Ədalət mühakiməsi əleyhinə olan cinayətləri xüsusi subyektə görə qruplaşdırmaq mümkündür. Bu zaman ədalət mühakiməsinin yalnız ümumi əlamətlərə malik olan şəxslər tərəfindən törədilən cinayətkar qəsdlərini qruplaşdırmaq olar. Buraya Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 286.1, 286.2, 287-290, 296 və digər maddələri aid edilə bilər. Ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində xüsusi subyektlər tərəfindən törədilən cinayətlər öz növbəsində onların icraçılarının malik olduqları xüsusi keyfiyyətlər nəzərə alınmaqla da təsnifatlaşdırıla bilər. Qanunun normalarından görmək olar ki, belə xüsusi keyfiyyətlərin böyük hissəsini şəxsdə əlavə səlahiyyətlərin və vəzifələrin olması təşkil edə bilər. Məsələn, Cinayət Məcəlləsinin 307-ci maddəsində nəzərdə tutulmuş əməli törətmiş subyekt üçün cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə əməlini törətmiş şəxs üçün ancaq yaxın qohumluq əlaqəsində olma əlamətlərinin istisna təşkil etməsi zəruridir.

Müəlliflərdən A.S.Qorelik, L.V.Lobanovanın fikrincə, qulluq səlahiyyətlərindən sui-istifadə edən şəxslər tərəfindən törədilən cinayətlər müvafiq təsnifata məruz qala bilərlər. Ədalət mühakiməsi əleyhinə olan cinayət əməlləri ədalət mühakiməsi qarşısında duran vəzifələri həll etməyə xidmət edən, eləcə də hüquq müdafiə funksiyasını həyata keçirən şəxslər tərəfindən törədildikdə, xüsusi təhlükəli elementli olur. Subyektlərin əlamətləri əsasında yuxarıda ədalət mühakiməsi əleyhinə olan cinayətlərin aparılan təsnifatı mütəxəssis-alimləri həmin qəsdlərin qruplaşdırılması mövqeyindən uzaqlaşdırmalı deyildir. Onlar ədalət mühakiməsi əleyhinə olan cinayətlərin aşağıdakı təsnifatını aparmışlar: 1) prosessual funksiyaların və prosessual hərəkətlərin icrası vəzifələrinin həyata keçirilməsi üçün ilkin şərtlər olan ictimai münasibətləri pozan cinayətlər (Azərbaycan Respublikası CM-nin 286, 287, 288, 301-ci maddələri); 2) Məhkəmənin nüfuzuna, ədalət mühakiməsini həyata keçirən və bu fəaliyyətə kömək edən vəzifəli şəxslərin şərəf və ləyaqətinə edilən qəsdlər (Azərbaycan Respublikası CM-nin 289-cu maddəsi), 3) ibtidai araşdırmanın gizliliyini təmin edən ictimai

münasibətlərə edilən qəsdlər (Azərbaycan Respublikası CM-nin 300-cü maddəsi); 4) qanunla müəyyən edilmiş prosessual fəaliyyətin və prosessual hərəkətlərin icrası üzrə fəaliyyətin istiqamətləndirilməsinin təmin edilməsi üzrə ctimai münasibətlərə qəsd edən cinayətlər (Azərbaycan Respublikası CM-nin 290, 291, 307-ci maddələri); 5) ədalət mühakiməsinin həyata keçirilməsində koqnitiv-hüquqi tətbiqetmə metodunu təmin edən ictimai münasibətlərə qəsd edən cinayətlər (Azərbaycan Respublikası CM-nin 294, 295, 296, 297, 298, 299-cu maddələri); 6) ədalət mühakiməsinin həyata keçirilməsinin prosessual formasını təmin edən ictimai münasibətlərə və bununla bağlı fəaliyyətə qəsd edən cinayətlər (Azərbaycan Respublikası CM-nin 292, 297-ci maddələri); 7) prosessual aktların məcburiliyini təmin edən ictimai münasibətlərə qəsd edən cinayətlər (Azərbaycan Respublikası CM-nin 303, 304, 305, 306-cı maddələri) [9].

Y.İ.Kuleşov tərəfindən ədalət mühakiməsi əleyhinə olan cinayətlərin aşağıdakı qrupları fərqləndirilmişdir: 1) məhkəmə icraatını həyata keçirən orqanların prosessual fəaliyyətinə qəsd edən cinayətlər (qanuna əsaslanan prosessual qərarların qəbulu ilə bağlı fəaliyyətə qəsdlər; cinayət haqqında obyektiv məlumatların əldə edilməsi ilə bağlı fəaliyyətə qəsdlər; cinayət haqqında etibarlı sübutlarının əldə edilməsi ilə bağlı fəaliyyətə qəsdlər; məcburiyyət və ya ələ alma yolu ilə cinayətlə bağlı etibarlı sübutların qanuni alınması ilə bağlı fəaliyyətə edilən qəsdlər; cinayətin təhqiqi, qarşısının alınması və açılması ilə bağlı fəaliyyətə qəsdlər); 2) Məhkəmə aktının icrası ilə bağlı fəaliyyətə qəsd edən cinayətlər (məhkəmə aktının icrası ilə bağlı fəaliyyətə qarşı edilən ümumi qəsdlər; azadlıqdan məhrum etmə, həbsə alma, qəti imkan tədbiri növündə tədbirlərin realizəsinə edilən qəsdlər [6].

Qeyd edilənlərin ümumiləşdirilməsi ilə belə qənaətə gəlmək olar ki, ədalət mühakiməsinin müasir cəmiyyətin dövlət-hüquqi həyatının təşkili ilə yanaşı, liberallaşma, qloballaşma, rəqəmsallaşma və s. şəraitdə əldə etdiyi spesifikliklər kontekstində nəzərdən keçirilməsi zəruridir.

## Biblioqrafiya

1. Cəfərquliyev M.Ə. Ədalət mühakiməsinin anlayışı, təşkili və strukturu // Qanun jurnalı - 2010. - № 04 (192). - S. 83-95.

2. Quliyev A.İ. Hüquq ensiklopediyası. - Bakı: Qanun, 2007. - 1108 s.

3. Tağıyeva N.N. Ədalət mühakiməsini və ya ibtidai istintaqı həyata keçirən şəxsin həyatına qəsd etmə əməlləri ilə mübarizənin cinayət-hüquqi və kriminoloji problemləri. Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. - Bakı, 2014, 188 s.

4. Зорькин В.Д. Конституция Российской Федерации и комментарии к ней. – М.: Норма, 2013. - 1040 с.

5. Коржанский Н.И. Объект и предмет уголовно-правовой охраны. – М.: Академия МВД СССР, 1980. - 125 с.

6. Кулешов Ю.И. Преступления против правосудия: проблемы теории, законотворчества и правоприменения. Дис… докт. юрид. наук. Владивосток, 2007, 490 с.

7. Лазарева В.А. Теория и практика судебной защиты в уголовном процессе. - Самара: Самарский университет, 2000. - 232 с.

8. Лейст О.Э. Санкции и ответственность по советскому праву: теоретические проблемы. – М.: МГУ, 1981. - 237 с.

9. Преступления против правосудия / Горелик А.С., Лобанова Л.В. - С.-Пб.: Юрид. центр Пресс, 2005. - 491 с.

**Nuriyeva G.N.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.190-199**
**UDC: 343.3**

## Regulation of responsibility for crimes against justice in the legislation of the Republic of Azerbaijan

**Abstract**: The Republic of Azerbaijan has regained its state independence as a full-fledged subject of international law in its development building a democratic society, took the path of socially oriented market economy relations and has become one of the leading countries of the modern world. In the early years of independence establishment of a legal and democratic social structure in front of our state, important tasks such as the organization of justice at the level of modern requirements have stood. Preservation of social and political stability in our country, sustainable development of socio-economic relations, ensuring the rule of law and legality, especially, under the leadership of the victorious Commander-in-Chief Mr. President Ilham Aliyev The liberation of our lands from the occupation of Armenia by the brave Armed Forces of Azerbaijan and the full establishment of state sovereignty in the entire territory of our country made it possible to achieve the mentioned tasks at a high level.

According to Article 71 of the Constitution of the Republic of Azerbaijan, it is the duty of legislative, executive and judicial authorities to protect human and civil rights and freedoms. No one can limit the exercise of human and civil rights and freedoms. Human and civil rights and freedoms are directly valid on the territory of the Republic of Azerbaijan. Courts resolve disputes related to violations of human and civil rights and freedoms. In democratic societies, the judiciary has an independent and extremely important function. This sphere of activity is carried out in procedural forms strictly defined by the legislator. Justice serves the purposes of ensuring property, public order, public safety, as well as the security of state power. This activity is carried out by the methods and means strictly defined by the law.

The article examines the concept, essence, content of justice, the scope of socially dangerous acts that violate this system of relations, and it is determined that there is no single, universally accepted opinion about the role played by this phenomenon in the life of society.

**Key words:** justice; justice condemnation; trial; public prosecutor; preliminary investigation; criminal composition; the object of the crime; classification of crimes.

### References

1. Jafarguliyev M.A. Concept, organization and structure of justice // Ganun Journal. 2010. No. 04 (192). P. 83-95. (in Azerbaijani).

2. Guliyev A.İ. Legal Encyclopedia. Baku, Ganun Publ., 2007, 1108 p. (in Azerbaijani).

3. Taghiyeva N.N. Criminal-legal and criminological problems of combating the acts of suicide of a person carrying out a trial or preliminary investigation. PhD in Law Diss. Baku, 2014, 188 p. (in Azerbaijani).

♦ **Nuriyeva Gunash Nizami** - Senior Lecturer at the Department of Humanities, Faculty of Economics and Management, Azerbaijan Technical University, Dissertator of the Center Forensic Expertise of the Ministry of Justice Republic of Azerbaijan. (Azerbaijan). Email: aliyev-1973@list.ru

4. Zorkin V.D. The Constitution of the Russian Federation and comments to it. Moscow, Norma Publ., 2013, 1040 p. (in Russian).

5. Korzhansky N.I. Object and subject of criminal legal protection. Moscow, Academy of the Ministry of Internal Affairs of the USSR Publ., 1980. - 125 p. (in Russian).

6. Kuleshov Yu.I. Crimes against justice: problems of theory, lawmaking and law enforcement. Doctor of Law Diss. Vladivostok, 2007, 490 p. (in Russian).

7. Lazareva V.A. Theory and practice of judicial defense in criminal proceedings. - Samara: Samara University Publ., 2000. - 232 p. (in Russian).

8. Leist O.E. Sanctions and liability under Soviet law: theoretical problems. – Moscow, MSU Publ., 1981. - 237 p. (in Russian).

9. Crimes against justice / Gorelik A.S., Lobanova L.V. - S.-Pb.: Legal. Center Press Publ., 2005. - 491 p. (in Russian).

**Нуриева Г.Н.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.190-199**
**УДК: 343.3**

## Регулирование ответственности за преступления против правосудия в законодательстве Азербайджанской Республики

**Аннотация**: В своем развитии, построением демократического общества, Азербайджанская Республика восстановила свою государственную независимость как полноценный субъект международного права, встала на путь социально ориентированных рыночных экономических отношений и стала одной из ведущих стран современного мира. В первые годы независимости перед нашим государством стояли такие важные задачи, как создание правового и демократического общественного устройства и организация правосудия на уровне современных требований. Сохранение социально-политической стабильности в нашей стране, устойчивое развитие социально-экономических отношений, обеспечение верховенства закона и законности, особенно, освобождение наших земель от оккупации Армении отважными Вооруженными Силами Азербайджана под руководством победоносного Главнокомандующего господина Президента Ильхама Алиева и полное установление государственного суверенитета на всей территории нашей республики позволили достичь упомянутых задач на высоком уровне.

Согласно статье 71 Конституции Азербайджанской Республики, обязанностью законодательной, исполнительной и судебной власти является защита прав и свобод человека и гражданина. Никто не может ограничивать реализацию прав и свобод человека и гражданина. Права и свободы человека и гражданина действуют непосредственно на территории Азербайджанской Республики. Суды разрешают споры, связанные с нарушением прав и свобод человека и гражданина. В демократических обществах судебная власть независима и иг-

♦ **Нуриева Гюнеш Низами кызы -** старший преподаватель кафедры Гуманитарных наук Факультета Экономики и управления, Азербайджанский Технический Университет, диссертант Центра Судебной Экспертизы Министерства Юстиции Азербайджанской Республики. (Азербайджан). Email: aliyev-1973@list.ru

рает важную роль в государственной жизни. Правосудие – это особая процессуальная область, разрешающая конфликты и споры между другими ветвями власти, предприятиями и организациями, а также гражданами. Эта сфера деятельности осуществляется в процессуальных формах, строго определенных законодателем. Правосудие служит целям обеспечения собственности, общественного порядка, общественной безопасности, а также безопасности государственной власти. Эта деятельность осуществляется методами и средствами, строго определенными законом.

Исследуются понятие, сущность, содержание правосудия, объем общественно опасных деяний, посягающих на данную систему отношений, и определяется, что не существует единого, общепринятого мнения о роли этого явления в жизни общества. Эти и другие вопросы справедливости могут быть решены оптимально лишь при наличии четкого представления о том, какие из существующих свойств этого явления являются универсальными, а какие из них находятся в прямой зависимости от обстоятельств или приспособлены к обстоятельствам.

**Ключевые слова:** справедливость; правосудие; суд; прокурор; предварительное расследование; состав преступления; объект преступления; квалификация преступлений.

**Библиография**

1. Джафакулиев М.А. Понятие, организация и структура правосудия // журнал Ганун. - 2010. - № 04 (192). -С. 83-95 (на азерб. яз.).

2. Гулиев А.И. Юридическая энциклопедия. – Баку: Ганун, 2007. – 1108 с. (на азерб. яз.).

3. Тагиева Н.Н. Уголовно-правовые и криминологические проблемы борьбы с посягательством на покушение убийством лица, осуществляющего суд или предварительное следствие. Дис… докт. филос. права. Баку, 2014, 188 с. (на азерб. яз.).

4. Зорькин В.Д. Конституция Российской Федерации и комментарии к ней. – М.: Норма, 2013. - 1040 с.

5. Коржанский Н.И. Объект и предмет уголовно-правовой охраны. – М.: Академия МВД СССР, 1980. - 125 с.

6. Кулешов Ю.И. Преступления против правосудия: проблемы теории, законотворчества и правоприменения. Дис… докт. юрид. наук. Владивосток, 2007, 490 с.

7. Лазарева В.А. Теория и практика судебной защиты в уголовном процессе. - Самара: Самарский университет, 2000. - 232 с.

8. Лейст О.Э. Санкции и ответственность по советскому праву: теоретические проблемы. – М.: МГУ, 1981. - 237 с.

9. Преступления против правосудия / Горелик А.С., Лобанова Л.В. - С.-Пб.: Юрид. центр Пресс, 2005. - 491 с.